**1.** Mərkəzi $O$ nöqtəsində olan çevrənin kəsişən iki vətərindən biri uzunluqları 48 sm və 3 sm olan iki parçaya bölünmüşdür. Digər vətər 1:4 nisbətində bölünərsə, bu vətərin uzunluğunu tapın.

*(6 aprel 2025, DİM)*

**2.** $ABC$ üçbucağının $AB$ və $AC$ tərəfləri mərkəzi O nöqtəsində olan çevrəyə uyğun olaraq K və C nöqtələrində toxunur. $\angle ABC = 40^\circ$ olarsa, $KmC$ qövsünün dərəcə ölçüsünü tapın.




*(9 aprel 2025, DİM)*

**3.** Mərkəzi $O$ nöqtəsi olan çevrənin $AB$ vətəri $AC$ diametrinin yarısına bərabərdir. $\angle BAO$-nu tapın.




A) $35^\circ$ B) $45^\circ$ C) $50^\circ$
D) $30^\circ$ E) $60^\circ$

*(2 mart 2025, DİM)*

**4.** Radiusları 18 sm və 10 sm olan iki çevrə xaricdən toxunur. Bu çevrələrin mərkəzləri arasındakı məsafəni tapın.

A) 8 sm B) 28 sm C) 24 sm
D) 22 sm E) 14 sm

*(14 aprel 2024, DİM)*

**5.** $\alpha = 16^\circ$, $\beta = 20^\circ$ və $\cup AmB = 130^\circ$ olarsa, $\gamma$ bucağının dərəcə ölçüsünü tapın.




*(10 mart 2024, DİM)*

**6.** $A$ nöqtəsindən çevrəyə düz bucaq əmələ gətirən iki toxunan çəkilmişdir. $A$ nöqtəsindən çevrənin $O$ mərkəzinə qədər məsafə $3\sqrt{2}$ sm olarsa, çevrənin uzunluğunu tapın.




*(3 mart 2024, DİM)*

**7.** $C$ nöqtəsindən çevrəyə CA və CD toxunanları çəkilmişdir. BD diametr, $\angle ACD = 60^\circ$, BD=12 olarsa, AB vətərinin uzunluğunu tapın.




*(2 aprel 2023, DİM)*

**8.** Şəkldə $AB = 8, CD = 12$ olarsa, $AD$ uzunluğunu tapın.




A) 4 B) 8 C) 12 D) 10 E) 16

*(12 mart 2023, DİM)*

**9.** $O$ mərkəzli çevrədə $AB \parallel CD$, $\overset{\frown}{DmB} = 30°$ və paralel vətərlər arasındakı məsafə 4 olarsa, çevrənin radiusunu tapın.




*(5 mart 2023, DİM)*

**10.** Mərkəzi O nöqtəsində olan çevrədə AD və AC çevrəyə toxunanlar, $\angle AOC = 70°$ olarsa, $\angle ABC$-ni tapın.




*(3 aprel 2022, DİM)*

**11.** $BC = 2$, $AD = 5$ və $CD = 10$ olarsa,çevrələr arasındakı ən qısa məsafəni tapın.




*(13 mart 2022, DİM)*

**12.** Radiusu 5 sm olan çevrənin diametrini tapın.
A) 10 sm B) 5 sm C) 8 sm
D) 7 sm E) 12 sm

*(12 mart 2022, DİM)*

**13.** $\cup BmC = 150°$, $\dfrac{\angle B}{\angle A} = \dfrac{2}{3}$ olarsa, $\angle A$–nı tapın.




*(6 mart 2022, DİM)*

**14.** O mərkəzli çevrə verilmişdir. BA və BC toxunanlardır. ABC bucağı $50°$ olarsa, ADC bucağını tapın.




*(5 mart 2022, DİM)*

Düzgün cavablar

1 (30)  2 (130)  3E  4B  5 (29)  6 (6π)

7 (6)  8E  9 (8)  10 (50)  11 (6)  12A

13 (45)  14 (165)